# Zaqatala: “Zamanın izləri” hər yanda aydın görünür

## Toplanmış səkkiz min səkkiz yüz kiloqram qızılgül ləçəyinin ətri də həmin izlərə qoşulur



❒ ***Adətən, baharın ilk ayında Zaqataladan qəzet materialı hazırlayan qələm sahibinin yadına düşən ilk məqam bu diyarın təbiəti olur. Bu qənaətə gəlməyimin səbəbi də aydındır. Ötən illərdə buradan hazırlayıb oxuculara təqdim etdiyim ınəqalələrin əksəriyyəti təbii gözəlliklərlə başlanıb. Özü də təkcə yazda yox, ilin bütün fəsillərində. İndi isə məqaləmi başqa cür başlamaq qərarına gəldim. Çünki martın 5-də rayon icra hakimiyyətinin saytında “YARAT-ın Zaqataladakı sərgisini 3 mindən çox tamaşaçı izləyib” sərlövhəli xəbər oxudum. Bildirilirdi ki, Yarat Müasir İncəsənət Məkanının 2016-cı il dekabrın 15-də Zaqatala Dövlət Rəsm Qalereyasında açdığı “Zamanın izləri” adlı səyyar sərgini indiyədək üç mindən artıq incəsənət həvəskarı izləyib. Etiraf edim ki, inana bilmədim. Çünki Zaqatala o qədər də böyük rayon deyil və qışın ortasında açılmış sərgiyə cəmi iki ay yarımda 3 mindən çox adamın gəlməsi kifayət qədər böyük göstərici idi. Ona görə də gedib sərgi ilə maraqlandım.***









Öyrəndim ki, səyyar sərgidə azərbaycanlı sənətkarlarla yanaşı, türk, gürcü və rus rəssamlarının video, foto və digər janrlarda işlədikləri əsərlərdən ibarət kolleksiya nümayiş etdirilir. Bu əsərlərdə gündəlik həyatda rastlaşdığımız ən adi hadisələr öz əksini tapıb. Türkiyəli rəssam Nevin Aladağın “Beşdaş oyunu” foto silsiləsi, tanınmış Azərbaycan rəssamı Rəşad Ələkbərovun “Şəbəkə” əsəri, fotoqraf Sənan Ələsgərovun “Sadəliyin şəffaflığı” foto əsərlər silsiləsi, Fərid Rəsulovun “Ətalət” video əsəri, gürcü rəssam Koka Ramişvilinin “Çay”, “Qəhvə” və “Süd” videoları, rusiyalı rəssam Olqa Çernışovanın “Ekranlar” adlı video əsərlər silsiləsi və digər müəlliflərin işləri izləyicilər tərəfindən böyük maraqla qarşılanırdı. Mən bu sərgidə multikulturalizmin mükəmməl bir nümunəsinin şahidi oldum. Əsərlərin hamısında zamanın izləri kifayət qədər aydın görünürdü. Sərgiyə tamaşa edərkən yadıma düşən ilk fikir bu oldu: necə də Zaqatala üçün xarakterik cizgilərdir. Çünki bu rayonda zamanın izləri, sözün həqiqi mənasında, hər addımda görünür.

Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə ilə söhbətimizdə zamanın izləri barədə heç nə danışmasaq da, eşitdiyim və şahidi olduğum faktların, rəqəmlərin, göstəricilərin hamısı sanki məhz həmin tezis üçün deyilirdi. Mübariz müəllim dedi ki, yaxın zamanlarda reallaşdırılacaq bir layihəmizin icrası nəticəsində təxminən 1200 nəfər işlə təmin olunacaq: “Rayon icra hakimiyyəti və “RR” şirkətlər qrupu tərəfindən rayonun Aşağı Tala kəndində “Şimal-Qərb” brendi altında Sosial Ticarət Mərkəzinin tikintisi üçün torpaq sahəsi ayırılıb və layihələndirmə işlərinə başlanılıb. Layihəyə əsasən 20-yə yaxın müxtəlif təyinatlı istehsal obyektlərinin tikintisi və 1100-1200 nəfər üçün yeni iş yerlərinin açılması nəzərdə tutulur”.

Həmsöhbətim qeyd etdi ki, təkcə ötən il rayonda 292,4 milyon manatlıq ümumi məhsul istehsal edilib və xidmətlər göstərilib ki, bu da əvvəlki illə müqayisədə 17,5 faiz çoxdur. Məhsul istehsalı sənayedə 98 faiz, ticarətdə 6,8 faiz, nəqliyyatda 2,4 faiz, rabitədə 15 faiz, pərakəndə əmtəə dövriyyəsi 15,7 faiz, pullu xidmətlərin həcmi 11,9 faiz artıb, 2482-i daimi olmaqla 3824 iş yeri açılıb. Sahibkarlığın davamlı olaraq inkişaf etdirilməsi və bu sahədə qarşıya çıxan problemlərin həlli istiqamətində silsilə tədbirlər həyata keçirilir. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən “Sahibkarlığın güzəştli kreditləşməsi məsələlərinə dair” keçirilən işgüzar forum çərçivəsində bölgədən olan 53 sahibkara güzəştli kredit verilib. 31 kiçik həcmli emal müəssisəsi, o cümlədən 10 fındıq emalı sexi, 4 çörək sexi, 9 dülgər sexi, 2 dəyirman, 2 plastik qapı-pəncərə sexi, 2 inkubator sexi, 1 tamet sexi, yem üyüdülməsi müəssisəsi yaradılıb, 30 layihə üzrə 268 min manat həcmində güzəştli kredit, 20 sahibkarlıq obyektinin tikintisinə razılıq verilib.

Mübariz müəllim xatırlatdı ki, Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kənd təsərrüfatının inkişafı ilə bağlı bir çox məsələlərə diqqəti cəlb edərək deyib: “ ... Kənd təsərrüfatı ilə bağlı məsələlər xüsusi diqqət tələb edir. Ona görə, mən bu sahəyə bu gün də ümumiyyətlə çox böyük diqqət ayırıram. Çünki bu sahə həm məşğulluqdur, həm inkişafdır, həm ixracdır. Biz ixracı şaxələndirməliyik və ilk növbədə kənd təsərrüfatı məhsulları hesabına. Bu, ölkəmizə daha çox valyuta, kənddə yaşayanlara isə əlavə vəsait gətirəcək”. Odur ki, rayonda fəaliyyət göstərən əlaqədar təşkilatlar, sahibkarlar və fermer təsərrüfatları, cənab Prezidentin bu tapşırıqlarının yerinə yetirilməsi istiqamətində bütün güc və imkanlarını səfərbər edirlər.

Xatırladıldı ki, rayonda 2016-cı ilin məhsulu üçün 12 min 221 hektar sahədə payızlıq taxıl, o cümlədən 8443 hektar sahədə buğda, 14 min 796,5 hektar sahədə yazlıq bitkilər əkilmişdi. Kənd təsərrüfatı işlərinin aqrotexniki müddətdə və keyfiyyətlə icra edilməsi nəticəsində rayonda 38 min 233 ton taxıl, o cümlədən 26 min 933 ton buğda, 32 min 464 ton qarğıdalı, 268 ton lobya, 528 ton tütün, 388 ton dən üçün günəbaxan, 8,8 ton qızıl gül ləçəyi, 18 min 512 ton kartof, 20520 ton tərəvəz, 8910 ton bostan məhsulu, 59319 ton quru ot, 30353 ton meyvə, 822 ton üzüm, 54 ton yaşıl çay yarpağı istehsal olunub. Ümumiyyətlə isə kənd təsərrüfatı məhsullarının istehsalı 109 milyon 101 min manat təşkil edib.

Təbii ki, aqrar sektorun inkişaf etdirilməsi üçün təsərrüfatların texnika, maşın-mexanizm və gübrələrlə təmin edilməsinin xüsusi rolu vardır. Ona görə də rayon rəhbəri qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarının icrası olaraq 2016-cı ildə 7150 nəfər kənd təsərrüfatı məhsulları istehsalçılarına 14 min 643 hektardan çox əkin sahəsinin becərilməsinə görə 947 min 298 manat dövlət yardımının verilməsi təmin edilib, “Aqrolizinq” ASC tərəfindən güzəştli qaydada 1212,25 ton mineral gübrələr və 972 litr herbisid satılıb, rayon filialında olan 51 ədəd müxtəlif kənd təsərrüfatı texnikası vasitəsilə 2416 hektar sahədə aqrotexniki işlər yerinə yetirilib.

Rayonda sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, uzun illər ərzində tənəzzülə uğrayan və Zaqatala üçün ənənəvi olan sahələrin inkişaf etdirilməsi məqsədi ilə RİHB-nın sərəncamı ilə qərargah yaradılıb. Qərargahın fəaliyyəti nəticəsində 2016-cı ilin payızında rayonda 2560 hektar sahədə yeni fındıq bağı salınaraq mövcud bağların sahəsi 16419,5 hektara çatdırılıb. Rayonda yeni fındıq bağlarının əkilməsi istiqamətində iş aparılaraq gələcəkdə bu sahənin daha da genişləndirilməsi nəzərdə tutulur. Fındıqçılığın inkişafına yardım etmək, sosial-iqtisadi inkişaf sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirləri təbliğ etmək, fındıq istehsalı və emalı sahəsində yeni texnologiyaların tətbiqinə, təbii resursların səmərəli istifadəsinə dəstək vermək, maarifləndirmə işi aparmaq məqsədi ilə ötən il rayonda “Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası” İctimai Birliyi təsis edilib.

Baramaçılığın inkişaf etdirilməsi məqsədi ilə rayonda proqnozlaşdırılan 1,5 ton barama istehsalı bir neçə dəfə artıq yerinə yetirilməklə, 6018 kiloqram barama istehsal edilərək “Şəki-İpək ASC”-yə təhvil verilib. Baramaçılığın dirçəldilməsi və gələcəkdə barama istehsalının artırılması məqsədi ilə rayonda 146 min 980 ədəd tut tinginin əkilməsi təmin edilib. Gələcəkdə yem bazasının bərpa edilməsi nəticəsində rayonda barama istehsalının 350 tona çatdırılması nəzərdə tutulur. 2017-ci ildə isə rayonda 13,5 ton barama istehsalı proqnozlaşdırılır.

Nisbətən unudulmuş sahələrdən olan tütünçülüyü inkişaf etdirmək məqsədi ilə rayonda əsasən ətirli və qiymətli tütün sortları olan “Berley” və “Virciniya”nın yetişdirilməsinə üstünlük verilir. Bu məqsədlə ötən il 601,5 hektar sahədə tütün əkilmiş, 1198 nəfər mövsümi işə cəlb edilmişdi. Gələcəkdə rayonda bu sahənin daha da genişləndirilməsi nəzərdə tutulur. Xatıərladaq ki, Prezident Administrasiyasının aqrar məsələlər şöbəsinin müdiri Azər Əmiraslanovun rəhbərliyi ilə fəaliyyət göstərən işçi qrupu, ötən ilin may ayında Zaqatala rayonunda olaraq kənd təsərrüfatı məhsulları istehsalının artırılması istiqamətində aparılan işlərin vəziyyətini yerində öyrənmiş, ayrı-ayrı fermerlər və iş adamları ilə kənd təsərrüfatının, xüsusilə də tütünçülüyün və baramaçılığın inkişafına mane olan problemləri və onların aradan qaldırılması yollarını müzakirə etmişdi.

Bundan başqa, İqtisadi İnkişaf Nazirliyi və rayon icra hakimiyyətinin təşəbbüsü ilə Oğuz, Qəbələ, Şəki, Qax, Zaqatala və Balakən rayon sahibkarlarının iştirakı ilə “Regionların inkişafı və ixrac sahəsində yaranmış yeni imkanlar” adlı konfrans da keçirilib.

Zaqatala üçün ənənəvi və ixrac potensialı yüksək olan sahələrdən biri də gülçülükdür. Gülçülüyün inkişaf etdirilməsi üçün rayon ərazisində gül plantasiyasının əkilməsi və yeni gül emalı zavodunun tikintisi məqsədi ilə 100 hektar torpaq sahəsi ayrılıb. İndiyədək gül plantasiyası üçün ayrılmış torpaq sahəsinin 64 hektarında Bolqarıstandan gətirilmiş 250 min ədəd "qızılgül" tinginin və 25 hektar sahədə 500 min ədəd "lavanda" tinglərinin əkilməsi təmin edilib.

Təbii ki, kənd təsərrüfatının inkişaf etdirilməsində fermerlərin suvarma suyu ilə təmin edilməsi də mühüm rol oynayır. Mübariz Əhmədzadə bildirdi ki, ölkə Prezidentinin “Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında” sərəncamının icrası olaraq qazılacaq 12 ədəd subartezian quyusunun yeri müəyyən edilərək sənədləşmə işləri aparılıb və Əliabad qəsəbəsi, Yuxarı Tala, Kebeloba, Bəhmətli və Yengiyan kəndlərində 1 ədəd, Muxax kəndində isə 2 ədəd olmaqla 7 subartezian quyusu qazılıb.

Qeyd edildi ki, Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ayrılmış vəsaitlər və daxili imkanlar hesabına rayon icra hakimiyyəti tərəfindən aparılan böyük abadlıq-quruculuq işləri sosial sahədə mövcud problemlərin həllini sürətləndirib, Zaqatala şəhərində, rayonun qəsəbə və kəndlərində abadlıq və quruculuq işləri geniş vüsət alıb. Bütün maliyyə mənbələri hesabına 11,9 milyon manat həcmində tikinti, abadlıq və quruculuq işləri görülüb. Məsələn, rayon məhkəməsi üçün yeni inzibati binanın tikintisi davam etdirilib, məcburi köçkün ailələri üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsinin - 3 ədəd 45 mənzilli yaşayış binasının, 140 şagird yerlik tam orta məktəbin, 50 yerlik uşaq bağçasının, klub binasının, tibb məntəqəsinin, ATS binasının və digər qurğuların tikintisi başa çatdırılaraq istifadəyə verilib.

“Zaqatala şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi və çoxmənzilli binaların əsaslı təmiri ilə əlaqədar tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2015-ci il tarixli sərəncamının icrası olaraq Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılmış vəsait hesabına şəhərdə 12 çoxmənzilli 5 mərtəbəli yaşayış binasında təmir işləri davam etdirilib. Həmçinin qeyri-məşğul əhalinin ödənişli ictimai əmək fəaliyyətinə cəlb edilməsi məqsədilə ayrılmış vəsait hesabına 16 ədəd çoxmənzilli yaşayış binasında təmir işləri aparılıb, ümumilikdə 16 min 730 kvadratmetr dam örtüyü əsaslı təmir edilib.

Əhaliyə və idarə-müəssisələrə göstərilən xidmətlərin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirlərdən danışan rayon rəhbəri qeyd etdi ki, yaşayış məntəqələrində enerji təminatı sahəsində lazım olan işlər görülüb, əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə 9 ədəd yeni tipli, müasir standartlara cavab verən müxtəlif güclü transformator məntəqəsi quraşdırılıb, hava xətlərinin təmiri işləri aparılıb. Bəhmətli və Danaçı kəndlərində müasir tipli qapalı yarımstansiya binası tikilib. Rayonun yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədi ilə yararsız vəziyyətdə olan su xətləri dəyişdirilib, subartezian quyuları, kürəbəndlərin, tənzimləyici qurğuların əsaslı və cari təmiri işləri aparılaraq əhalinin istifadəsinə verilib. Yaponiya səfirliyinin maliyyə dəstəyi ilə Muxax və Qımır kəndlərində iki ədəd yeni artezian quyusu qazılaraq istifadəyə verilib. Dövlət Proqramının icrası olaraq rayonun Uzunqazmalar, Uzuntala, Yuxarı Çardaxlar, Ələsgər və Paşan kəndlərində modul tipli sutəmizləyici qurğuların tikintisi davam etdirilmiş, ümumilikdə 87 ədəd bulağın inşası və 18,2 kilometr uzunluğunda müxtəlif diametrli borularla su xətlərinin çəkilişi aparılıb.

... Amma deyəsən, yazının əvvəli üçün seçdiyimiz fakta nisbətən final üçün əlimizə düşən fakt daha “ətirli” oldu. Çünki, Mübariz müəllim söhbətimizin sonunda rayon iqtisadiyyatı ilə bağlı ətirli bir xəbərdən söz açdı: Zaqatalada yeni gül emalı zavodu tikiləcək. Hazırda zavodun inşası üçün Türkiyədə layihələndirmə işləri aparılır. Rayonda yeni gül plantasiyalarının salınması barədə isə yuxarıda söz açmışdıq. Bu məqsədlə rayonun Aşağı Tala kəndinin ərazisində 100 hektar torpaq sahəsi ayrılıb. Artıq 77 hektar sahədə yeni gül plantasiyası salınıb. Bolqarıstandan gətirilən 250 min ədəd qızılgül tingi 64 hektar sahəyə əkilib. Yeni salınan gül plantasiyasından bir neçə ildən sonra ildə 500 ton gül ləçəyinin toplanması planlaşdırılır.

Gözəl xəbərdir.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***